

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 189 (21.341)

*30 sentyabr 2015-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da Macarıstanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İmre Laslotskinin etimadnaməsini qəbul edib.

Səfir İmre Laslotski fəxri qarovul dəstəsinin qarşısından keçib.

İmre Laslotski etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət edib.

Fövqəladə və səlahiyyətli səfir İmre Laslotski Macarıstanın Baş naziri Viktor Orbanın salamlarını dövlətimizin başçısına çatdırıb.

Görüşdə Azərbaycan ilə Macarıstan arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə edilib, əməkdaşlığımızın müxtəlif sahələrdə genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulanıb, ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən energetika, informasiya-kommunikasiya texnologiyaları, təhsil, səhiyyə, kənd təsərrüfatı və digər sahələrdə daha da inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı İlham Əliyev Baş nazir Viktor Orbanın salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Macarıstanın Baş nazirinə çatdırmağı xahiş edib.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Sentyabrın 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Fransanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Paskal Mönye ilə görüşmüşdür.

Qonağı salamlayan Ali Məclisin Sədri onun Azərbaycan-Fransa əlaqələrinin inkişafındakı xidmətlərini qeyd etmişdir. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Fransa arasında bir çox istiqamətlərdə, xüsusilə elm, təhsil və incəsənət sahələrində əlaqələrin mövcud olduğunu bildirən Ali Məclisin Sədri əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyinə inamını ifadə etmişdir.

Muxtar respublikaya səfərindən məmnunluğunu bildirən Paskal Mönye ölkələrimiz arasındakı ikitərəfli münasibətlərdən danışmış, Naxçıvan Muxtar Respublikasının inkişafının əlaqələrin genişləndirilməsi üçün geniş perspektivlər açdığını bildirmiş və Naxçıvan Dövlət Universitetində fransız dilinin tədrisi üçün yaradılan şəraitə görə minnətdarlıq etmişdir.

Söhbət zamanı mövcud əməkdaşlıq imkanları müzakirə olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Ulu öndər Heydər Əliyev və milli-mənəvi dəyərlər



***Naxçıvan Dövlət Universitetində Heydər Əliyev Universitetinin "Ulu öndər Heydər Əliyev və milli-mənəvi dəyərlər" mövzusunda 199-cu məşğələsi keçirilib.***

Məşğələni giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ulu öndərin hakimiyyətə qayıdışından əvvəl ölkəmizin üzləşdiyi acınacaqlı vəziyyətdən, dahi rəhbərin 1993-cü ildə hakimiyyətə gəlişindən sonra həyata keçirdiyi xilaskarlıq missiyasından danışıb.

Rektor qeyd edib ki, görkəmli dövlət xadimi Heydər Əliyev milli dəyərlərimizin öyrənilməsini, qorunub saxlanılmasını, inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürürdü. Dahi şəxsiyyət deyirdi ki, milli dəyərləri qoruyub saxlayan xalq həmişə müstəqillik yolu ilə getmək və müstəqilliyini qorumaq əzmində olacaqdır. Saleh Məhərrəmov dövlətimiz tərəfindən hər zaman milli-mənəvi dəyərlərimizə yüksək qayğı və diqqət göstərildiyini nəzərə çatdırıb.

"Ulu öndər Heydər Əliyev və milli-mənəvi dəyərlər" adlı məruzə ilə çıxış edən universitetin Fənlərin tədrisi, metodikası və texnologiya müəllimliyi kafedrasının müdiri, professor Elbəyi Maqsudov ümummilli liderin milli dəyərlərimizi təkcə milli varlığımızın yox, həmçinin dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirdiyini bildirib. O qeyd edib ki, 1969-cu il iyulun 14-də siyasi hakimiyyətə gələn ümummilli lider Heydər Əliyev ilk gündən hər cür ideoloji-siyasi çətinliklərə sinə gərərək Azərbaycan xalqının milli özünüdərki üçün bütün zəruri tədbirləri həyata keçirib, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi yüksəlişlərə ruhlandırıb. Dahi rəhbər xalqı öz şanlı keçmişinə, soykökünə qaytarmaq, habelə zəngin bədii irsini, mədəniyyətini, incəsənətini, adət-ənənələrini yaşatmaq, ana dilini inkişaf etdirmək üçün bir sıra mühüm tədbirlər həyata keçirib. Görkəmli dövlət xadimi Heydər Əliyev 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə gəldikdən sonra da xalqımızın milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə sadiq olduğunu öz fəaliyyəti, əməlləri və bu sahədə həyata keçirdiyi tədbirlərlə sübut edib.

Professor vurğulayıb ki, bütün görülən işlərlə yanaşı, müdrik rəhbərimiz Heydər Əliyevin böyük qayğı və diqqəti nəticəsində 2000-ci ildə "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin YUNESKO xətti ilə beynəlxalq miqyasda təntənəli qeyd edilməsi də ümummilli liderin milli-mənəvi dəyərlərimizə olan hörmət və ehtiramının növbəti parlaq təcəssümü idi.

Vurğulanıb ki, ulu öndər Heydər Əliyevin müdrik dövlətçilik kursunun, strateji inkişaf konsepsiyasının layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin milli-mənəvi dəyərlərimizə olan qayğıkeş münasibəti bu gün hər bir azərbaycanlı tərəfindən alqışlarla qarşılanır. Bu baxımdan ölkə başçısının xalqımızın mədəni sərvətlər xəzinəsində müstəsna yer tutan və əsrlərdən bəri milli-mənəvi varlığın ayrılmaz tərkib hissəsinə çevrilən "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" bu il fevral ayının 20-də imzaladığı Sərəncam da diqqəti cəlb edir.

**Mina QASIMOVA**

***Fransa Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Paskal Mönye Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində muxtar respublikanın təhsil, mədəniyyət və səhiyyə müəssisələri ilə tanış olub.***

## Səfir Naxçıvan Muxtar Respublikasının təhsil, mədəniyyət və səhiyyə müəssisələri ilə tanış olub



Səfər çərçivəsində fransalı diplomat, ilk olaraq, ulu öndərin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət edib.

Naxçıvan Dövlət Universitetinə gələn səfirə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bu təhsil müəssisəsinin strukturu, buradakı elektron təhsil şəbəkəsi və müasir texnologiyalardan istifadə, tədris olunan ixtisaslar barədə ətraflı məlumat verib. Qeyd olunub ki, 80-dən çox universitetlə tərəfdaşlıq edən, bir sıra beynəlxalq layihələrin iştirakçısı olan bu ali məktəbin Fransanın ali təhsil ocaqları ilə də sıx əlaqəsi var. Hər il ali məktəbdə ənənəvi Frankofoniya bayramı vasitəsilə tələbələrdə fransız dilinə, tarixinə və mədəniyyətinə maraq aşılanır. Rektor Fransanın Azərbaycandakı səfirliyinin ali məktəblər arasındakı əməkdaşlığın genişləndirilməsi istiqamətindəki fəaliyyətini yüksək qiymətləndirərək müxtəlif vaxtlarda muxtar respublikanın fransız dili müəllimləri üçün "Village français" (Fransız şəhərciyi) adlanan pedaqoji stajın, tələbələr arasında müxtəlif müsabiqələrin təşkilindən söz açıb.

Paskal Mönye universitetlərarası əməkdaşlığın inkişafının əhəmiyyətindən bəhs edib, bu istiqamətdə səylərini əsirgəməyəcəyini bildirib.

Universitetin Media və İnformasiya-Kommunikasiya Texnologiyaları mərkəzlərində olan səfirə universitet televiziyası və "Nuhçıxan" radiosunun verilişlərinin Naxçıvan şəhərində rəqəmsal formatda yayımlanması, video və slayd şəklində mühazirə kontentlərinin hazırlanması, quraşdırılan server avadanlıqları, elektron mühafizə və müşahidə sistemləri, elektron sənəd dövriyyəsi prosesinin həyata keçirilməsi ilə bağlı məlumat verilib.

Fransız dili müəllimliyi ixtisası üzrə təhsil alan tələbələrlə görüş zamanı səfir Paskal Mönye fransız dilinin dünyada qəbul olunan əsas beynəlxalq dillərdən biri olduğunu, onun tədrisinin dünyaya inteqrasiya, Azərbaycan və Fransa arasında siyasi, elmi, mədəni əlaqələrin gələcək inkişafı baxımından zəruriliyini vurğulayıb.

Fransalı qonaq həmin gün Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyində də olub, burada naxçıvanlı rəssamların rəsm əsərlərinə baxıb.

Səfir Naxçıvan şəhəri ilə tanışlıq zamanı Dövlət Bayrağı Meydanı və Muzeyi, Naxçıvan Dövlət Xalça Muzeyi, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi və "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə də yaxından tanış olub.

Duzdağ Fizioterapiya Mərkəzində isə səfirə buradakı müalicə prosesi haqqında məlumat verilib. Bildirilib ki, bu səhiyyə müəssisəsi bir çox xəstəliklərin müalicəsində əhəmiyyətli şəfa ocağıdır. Buna görə də hər il dünyanın müxtəlif ölkələrindən bura müalicə üçün xeyli insan gəlir.

Fransalı səfirin Naxçıvana səfəri bu gün başa çatır.

**Səbuhi HƏSƏNOV**

# Millətin gələcəyi, qüdrətli dövlətin əsas dayağı – insan kapitalı

## Bu amil əsas tutularaq muxtar respublikada ali təhsil ocaqlarının infrastrukturu daha mükəmməl şəkildə qurulur, təhsilin səviyyəsi daim yüksəldilir


"Naxçıvan" Universiteti

***Bu gün muxtar respublikamızda ulu öndər Heydər Əliyevin layiqli davamçıları digər sahələrlə yanaşı, təhsil strategiyasını da uğurla həyata keçirirlər. Uzaqgörənliklə görülən genişmiqyaslı işlər muxtar respublikamızın kadr potensialının daha da yüksək səviyyədə formalaşmasına hesablanıb. İnsan kapitalına göstərilən bu diqqətin əsaslı səbəbləri vardır. Belə ki, qüdrətli dövlətlərin tarixini araşdırdıqda bir daha aydın olur ki, həmin dövlətlərin bu səviyyəyə yüksəlməsində geniş dünyagörüşə malik xarizmatik liderlərlə, şəxsiyyətlərlə yanaşı, onların ətrafında sıx birləşən və öz işini mükəmməl bilən etibarlı, sədaqətli, vətənpərvər kadrlar da əsaslı rol oynamışlar.***

Dövlət idarəçilik sisteminin şaxələndiyi, müəyyən mənada mürəkkəbləşdiyi, bununla bərabər, cəmiyyətin tələblərinin kifayət qədər artdığı müasir dövrdə hazırlıqlı kadr amili daha çox əhəmiyyət kəsb edir. Ona görə də inkişaf, yüksəliş yolunu tutan hər bir dövlət daxili imkanlarını səfərbər edərək öncə insan kapitalına ciddi diqqət yetirir. Həm də ona görə ki, insan kapitalı olmadan təbii sərvətlər, geostrateji mövqe və bu kimi digər önəmli məsələlər xalqlara, millətlərə, dövlətlərə fayda vermir, əksinə, həmin ölkələr sərvətlərə sahib çıxmaq və digər imkanlardan istifadə etmək üçün bölgəni nəzarətdə saxlamağa can atan dövlətlərin, iqtisadi maraq qruplarının və gizli qlobal güclərin təsirinə düşür, sözün həqiqi mənasında, koloniyaya çevrilir və yalnız sözdə müstəqil olurlar. Bunu yaxşı bilən ümummilli liderimiz Heydər Əliyev deyirdi: ***"Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır".***

Təhsilin inkişafı, kadr hazırlığı prosesi davamlılıq və xüsusi diqqət tələb edir. Bu gün ölkəmizdə bu sahəyə xüsusi qayğı göstərilir. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, dövlət başçısı cənab İlham Əliyevin böyük səyləri sayəsində təhsil, onun tərkib hissəsi olan kadr hazırlığı Azərbaycanın davamlı inkişaf strategiyasının mühüm istiqamətlərindən birinə çevrilmişdir.

Bu gün respublikamızın bütün regionlarında, həmçinin Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı prioritet istiqamət təşkil edir. Son 20 ildə sürətli inkişaf yolu keçən muxtar respublikamızda təhsil sahəsinə də böyük qayğı göstərilmişdir. Təkcə Naxçıvan şəhəri və ya rayon mərkəzləri ilə məhdudlaşmayan, ucqar dağ və sərhəd kəndlərini də əhatə edən, perspektivə hesablanmış yeni məktəb binalarının tikintisi, həmçinin muxtar respublikamızdakı ali təhsil müəssisələri üçün yeni, ən müasir binaların inşa olunması təhsilin inkişafında, kadr potensialının formalaşmasında yeni üfüqlər açır.

Sentyabrın 15-də – Bilik Günündə "Naxçıvan" Universiteti üçün inşa olunan yeni universitet şəhərciyinin istifadəyə verilməsi bunu bir daha təsdiq edir.

Qeyd edək ki, indiyədək 3245 məzunu olan "Naxçıvan" Universiteti 1999-cu ildən fəaliyyət göstərir. Ali təhsil ocağında hazırda 4 fakültə, 9 kafedra, 5 şöbə vardır. 2015-2016-cı tədris ilində minə yaxın tələbə müasir tələblərə cavab verən bu universitetdə təhsil alacaqdır. Bilik Günündə istifadəyə verilən universitetin yeni şəhərciyində 6 mərtəbəli birinci tədris korpusu diqqəti cəlb edir. Bu binada universitetin İdarəetmə, İqtisadiyyat və Pedaqogika fakültələri fəaliyyət göstərəcəkdir. Tədris korpusunda 34 auditoriya, hər birində 66 kompüter olan 2 imtahan mərkəzi, proyektor və elektron lövhə quraşdırılan 11 mühazirə zalı, Heydər Əliyev Dövlətçilik Mərkəzi, Coğrafiya, Azərbaycan tarixi, Turizm-informasiya kabinələri, informatika, informasiya sistemləri, texnologiya, server, nəşriyyat və digər otaqlar vardır. Binada elektron təhsilin tətbiqi üçün müasir infrastruktur yaradılmışdır. İmtahan mərkəzlərinin müasir texnoloji sistemi eyni vaxtda bir neçə ixtisas üzrə imtahanların çevik və şəffaf formada aparılmasına, imtahanların gedişini internet üzərindən izləməyə, eləcə də onların video arxivini yaratmağa imkan verəcəkdir.

Bir maraqlı fakt da budur ki, universitetin Kompüter Səviyyə Ölçmə Mərkəzində tələbələr üçün kompüter kursları təşkil olunacaq və kursu uğurla bitirən tələbələrə dünyanın 150 ölkəsində tanınan sertifikatlar veriləcəkdir. Huawei İnformasiya-Kommunikasiya Texnologiyaları kabinəsində tələbələrə şirkətin istehsal etdiyi məhsulların istifadə qaydaları və ən son texnoloji yeniliklər öyrədiləcəkdir. Həyata keçirilən bu layihə çərçivəsində tələbələrin Huawei şirkətində bir ay müddətində təcrübə keçmələri də nəzərdə tutulmuşdur. Bu da informasiya texnologiyaları üzrə mükəmməl mütəxəssislərin hazırlanmasına imkan verəcəkdir.

Muxtar respublikada gənclərin xarici dil biliklərinin inkişafına xüsusi diqqət yetirilir. Universitetin xarici dillər korpusunda müxtəlif dünya dillərinin, xüsusilə ingilis, alman və ərəb dillərinin nəzəri və praktik formada öyrədilməsi üçün müasir şərait yaradılmışdır.

4 mərtəbədən ibarət olan universitet kitabxanasında 15 minə yaxın elmi və bədii ədəbiyyat vardır. Binada kitabxanaçılıq işi müasir tələblər əsasında qurulmuş, elektron dərslik və ədəbiyyatlar verilmişdir.

Konfrans və idman zalları üçün nəzərdə tutulan ikimərtəbəli bina müasir quruluşa malikdir. 240 yerlik konfrans zalında müasir audio-video və sinxron tərcümə sistemləri quraşdırılmış, proyektorlu elektron lövhə qoyulmuşdur. Bu da distant dərslərin təşkilinə imkan verəcəkdir. Geniş idman zalında isə voleybol, basketbol, badminton, futbol və digər idman növləri üzrə yarışların keçirilməsi mümkündür.

Yeni istifadəyə verilən 302 yerlik yataqxana binası da öz möhtəşəmliyi ilə diqqəti cəlb edir. Burada otaqlar zəruri mebel avadanlıqları ilə təchiz olunmuşdur. İki girişi olan 6 mərtəbəli binada tələbələr üçün müasir yaşayış şəraiti yaradılmış, otaqların hər biri internetlə təmin olunmuş, məişət otağı, camaşırxana, mətbəx və istirahət otaqları istifadəyə verilmişdir. Yataqxanadakı otaqların beşulduzlu otellərin otaqlarından heç bir fərqi olmadığını xüsusilə vurğulamaq istərdim. Tələbənin belə bir şəraitdə qalması ali təhsilimizə göstərilən qayğının, diqqətin növbəti təzahürüdür. Dünyanın bir sıra universitetlərinin şəraiti ilə tanış olduğum üçün və Türkiyənin ən qabaqcıl ali təhsil müəssisələrindən biri olan Mərmərə Universitetinin məzunu kimi tam səmimiyyətimlə qeyd etmək istərdim ki, "Naxçıvan" Universitetində tələbələr üçün yaradılan şərait dünyanın ən qabaqcıl ali təhsil müəssisələrindəki şəraitdən heç də geri qalmır. Deyərdim ki, bir sıra sahələrdə hətta dəfələrlə irəlidədir.

Qeyd etdiklərimizi "Huawei Technologies Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktoru Liu Jiavel də təsdiq etdi. Onunla söhbətimizdə qeyd etdi ki, "Naxçıvan" Universitetinin yeni şəhərciyində tələbələrin ən yüksək səviyyədə təhsil almaları və peşəkar, hazırlıqlı kadr kimi yetişmələri üçün mükəmməl bir şərait yaradılmışdır. O, "Naxçıvan" Universitetində Huawei İnformasiya-Kommunikasiya Texnologiyaları Akademiyasının yaradılmasının həyata keçirilən kompleks işlərin tərkib hissəsi kimi önəmini qeyd etdi və "Naxçıvan" Universitetinin çox qısa zamanda regional təhsil mərkəzinə çevriləcəyinə əminliyini bildirdi.

Məlumat üçün deyək ki, bu tədris ilində 13 ixtisas üzrə mütəxəssis hazırlığı aparılacaq "Naxçıvan" Universitetində təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində də işlər görülür. Dünyanın məşhur ali təhsil müəssisələrindən olan Almaniyanın Lüdviq Maksimillians Universiteti ilə, son dövrlərdə isə Türkiyənin 9, eləcə də Rumıniya, Çexiya və Latviya universitetləri ilə əlaqələr yaradılmış, bununla da, universitetin əməkdaşlıq etdiyi ali məktəblərin sayı 51-ə çatmışdır.


Naxçıvan Dövlət Universiteti

Ölkəmizdə yüksəkixtisaslı kadrların hazırlanması istiqamətində mühüm işlər görən, Avropa standartlarına uyğun, dünya miqyasında tanınan müasir təhsil ocağı Naxçıvan Dövlət Universitetinin də tədris imkanları hər il daha da yaxşılaşdırılır. Universitet son 20 ildə böyük inkişaf yolu keçərək müasirtipli və çoxprofilli ali təhsil mərkəzinə çevrilmişdir. Hazırda Naxçıvan Dövlət Universitetində 54 ixtisas üzrə 5 mindən çox tələbə təhsil alır. Bu gün Naxçıvan Dövlət Universiteti dünyanın 80-ə yaxın ali təhsil müəssisəsi ilə əməkdaşlıq edir. Bu əməkdaşlığın nəticəsidir ki, Naxçıvan Dövlət Universitetində 360-dan çox xarici tələbə təhsil alır. Təsadüfi deyil ki, bu ilin əvvəlində Azərbaycandan Kənarda Təhsil Almış Mütəxəssislər Təşkilatı tərəfindən "Azərbaycanda ali məktəblərin reytinqinin müəyyən edilməsi" layihəsi çərçivəsində aparılan tədqiqat nəticəsində Naxçıvan Dövlət Universiteti reytinq cədvəlində birinci yeri tutmuş, Naxçıvan Müəllimlər İnstitutu isə ilk onluqda yer almışdır.

Son 20 ildə Naxçıvan Dövlət Universitetinin şəhərciyində aparılan yenidənqurma işləri, tikilən müasir binalar və yaradılan elektron tədris sistemi təhsilin səviyyəsini xeyli yüksəltmişdir. Naxçıvan Dövlət Universiteti güclü maddi-texniki bazası, müasir tədris korpusları, Tibb fakültəsi, xəstəxanası, idman kompleksi, konservatoriyası, elektron kitabxanası olan ali təhsil ocağıdır. Xatırladaq ki, bu işlərin davamı olaraq, universitet xəstəxanası və Baytarlıq təbabəti ixtisası üçün yeni, müasir binalar inşa olunmuşdur. Bu il mayın 21-də həmin binalar universitet tələbələrinin ixtiyarına verilmişdir. Həmin tikililərin istifadəyə verilməsi də göstərilən qayğının davamıdır.


Naxçıvan Müəllimlər İnstitutu

Təhsilin inkişafı əhalinin rifahının yaxşılaşması, həmçinin insanların həyatının daha yüksək səviyyədə qurulmasına zəmin yaradır. Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömürboyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir. Ümumilikdə isə yüksək təhsil xalqımızın tərəqqisi üçün vacib amil kimi həmişə diqqət mərkəzində olub. Bu məsələdə müəllimlərimizin rolu danılmazdır. Digər tərəfdən, əgər müəllimlərimiz müasir dövrün tələblərinə cavab verəcək səviyyədə deyilsə, onda təhsilin səviyyəsinin yüksəlməsindən danışmaq əbəsdir. Muxtar respublikamızda bu məsələ də diqqət mərkəzində saxlanılır, yüksəkixtisaslı pedaqoji kadrlar hazırlanır. Ümummilli liderimiz Heydər Əliyevin 2000-ci il 13 iyul tarixli Fərmanına əsasən, Naxçıvan Politexnik Texnikumunun bazasında Azərbaycan Müəllimlər İnstitutunun Naxçıvan filialının yaradılması, 2003-cü il avqustun 26-da filialın Naxçıvan Müəllimlər İnstitutuna çevrilməsi və müstəqil fəaliyyətə başlaması bu mənada çox əhəmiyyətlidir. Muxtar respublikamızda təhsilə göstərilən diqqət Naxçıvan Müəllimlər İnstitutunun da fəaliyyətinə geniş imkanlar açmışdır. Ötən dövrdə institutun binası yenidən qurularaq lazımi tədris şəraiti yaradılmış, maddi-texniki baza gücləndirilmişdir. Ali təhsil müəssisəsində bu imkanlardan yararlanaraq ixtisaslı kadrların hazırlanması sahəsində mühüm nailiyyətlər əldə edilmişdir. 15 il bundan öncə 21 tələbə ilə fəaliyyətə başlayan institutda hazırda 1100 tələbə və 25 magistr təhsil alır. 2011-ci ildə Naxçıvan Müəllimlər İnstitutunun fəaliyyət istiqamətləri genişləndirilmiş, yeni ixtisaslar açılmışdır.

Bir məsələ xüsusilə qeyd olunmalıdır ki, kadr hazırlığı yalnız ali və orta ixtisas təhsili müəssisələrinin üzərinə düşən vəzifə deyil. Bu işdə aid dövlət təşkilatları da fəallıq göstərməli, ali və orta ixtisas təhsili müəssisələrində müvafiq ixtisaslar üzrə oxuyan gənclərlə əlaqələr genişləndirilməli, gələcəyin kadrları bu gündən hazırlanmalıdır. Bununla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2015-ci il 27 iyul tarixdə "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncam imzalamışdır. Sərəncama əsasən, Naxçıvan Dövlət Universiteti, "Naxçıvan" Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Naxçıvan Tibb Kolleci, Naxçıvan Musiqi Kolleci və Naxçıvan Dövlət Texniki Kolleci üzrə 100-ə yaxın ixtisas muxtar respublikanın aid təşkilatlarına hamiliyə verilmişdir. Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi yüksəkixtisaslı kadrların hazırlanmasına böyük töhfə verəcəkdir.

*Ölkəmizdə insan kapitalının formalaşmasında təhsilin digər pillələri kimi, ali təhsilin də rolu əvəzsizdir. Əgər orta məktəb insanı həyata hazırlayırsa, ali məktəb onu yüksəkixtisaslı kadr kimi, müəyyən bir sahənin mütəxəssisi kimi yetişdirir. Bu mənada, Naxçıvan Muxtar Respublikasında ali məktəbə, ali təhsilin təşkilinə ciddi diqqət yetirilir. Ali Məclisin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***"Hər bir cəmiyyətdə təhsil mühüm rola malikdir. Vaxtilə təhsilin cəmiyyətdəki rolundan danışan görkəmli yazıçı və ictimai-siyasi xadim Nəriman Nərimanov qeyd edirdi ki, heç bir millət qılınc və tüfənglə qabağa getməyibdir. Yalnız elmin və təhsilin gücünə tərəqqi etmək mümkündür. Bu gün bu fikirlərdəki həqiqətlər bir daha özünü göstərir. Müasir dünyada o dövlət güclü hesab olunur ki, onun güclü təhsil potensialı olsun. Amerika Birləşmiş Ştatlarının politoloqları deyirdilər ki, "Amerika universitetləri güclüdür, ona görə yox ki, Amerika varlıdır. Amerika varlıdır, ona görə ki, onun universitetləri güclüdür".***

✍ **Rauf ƏLİYEV**




# Naxçıvanda balıqçılıq təsərrüfatı genişləndirilir



*İnsan orqanizminin sağlamlığı üçün onun bütün növ qidalarla bəslənməsi mühüm şərtdir. Bu baxımdan müntəzəm olaraq balıqla qidalanmağın faydaları haqqında da çox deyilib. Ürək və beyin fəaliyyətinin normal olması, yoluxucu xəstəliklərə qarşı güclü bədən müqavimətinə, yaxşı görmə qabiliyyətinə, möhkəm dişlərə, gözəl dəriyə və saçlara malik olmaq üçün həkimlər balıq əti və balıq yağını həmişə tövsiyə ediblər. Təsadüfi deyil ki, qədimdə də balıq əti insanın ilk qida mənbəyindən biri olub.*

Naxçıvanın zəngin təbii sərvətləri arasında su və sudan əldə olunan nemətlər də az deyil. Bu baxımdan müxtəlif balıq növlərinin təbii halda yetişdiyi çay, göl və su anbarlarımız xüsusi əhəmiyyət kəsb edir. Bu su hövzələrində muxtar respublika əhalisinin tələbatını tam şəkildə ödəyə bilən yüksəkkeyfiyyətli balıq sortları üçün əlverişli təbii şərait vardır. Balıq sərvətlərimizin ciddi şəkildə qorunması üçün görülən tədbirlər də bu qiymətli sərvətin çoxaldılmasına imkan yaradıb. Məqsəd əhalinin keyfiyyətli ərzaq məhsullarına olan tələbatının davamlı şəkildə ödənilməsinə nail olmaqdır.

Bu baxımdan "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin icrası əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təminatına şərait yaradıb. Son illər bu sahədə görülən işlər balıqçılıq təsərrüfatının inkişafı üçün də geniş imkanlar açıb. Bu il sentyabrın 10-da Naxçıvan "Balıqçılıq Təsərrüfatı" üçün yeni kompleksin istifadəyə verilməsi də bu sahənin inkişafına göstərilən qayğının daha bir ifadəsidir. Muxtar respublikada əhalinin keyfiyyətli balıq məhsulları ilə təminatı və balıqçılığın inkişafı üçün görülən bu tədbirlər, son nəticədə, ərzaq təhlükəsizliyinin təmin olunmasında digər sahələrlə yanaşı, balıqçılıq təsərrüfatlarının da rolunun artırılması məqsədi daşıyır.

Artıq balıq ovu mövsümü başlamışdır və bu sahədə görülən işlərlə tanış olmaq üçün Naxçıvan "Balıqçılıq Təsərrüfatı"na yollandıq. Naxçıvan şəhərində, Araz çayına yaxın bir ərazidə yerləşən kompleksdə bildirildi ki, əvvəllər köhnə binada yerləşən təsərrüfatda işlərin yeni tələblər əsasında qurulmasına imkan yox idi. Yeni kompleksdə yaradılmış müasir iş şəraiti isə muxtar respublikada balıqçılığın inkişaf etdirilməsi üçün əlverişli imkan yaradır. İndi kompleksdə balıq yetişdirilməsi və gələcəkdə təsərrüfatın nəzdində balıq məhsulları istehsalı sahəsinin də qurulması mümkün olacaqdır. Öyrəndik ki, Naxçıvanın su hövzələrindən tutulan çəki, suf, xəşəm, naxa, qalınalın, dabanbalığı kimi balıq sortlarına mövsüm ərzində böyük tələbat vardır. Bazardakı tələbatı ödəyə bilmək üçün mövcud hava şəraitindən istifadə edərək gün ərzində lazım olan həcmdə balıq ovlanır. Gündəlik ovlanan təzə balıq Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin nəzdində fəaliyyət göstərən "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətində laboratoriya analizindən keçdikdən sonra satışa göndərilir.



Naxçıvan "Balıqçılıq Təsərrüfatı"nda idarəetmə heyəti ilə birlikdə 35 nəfər işlə təmin olunub. Balıq ovu mövsümündə iqlim şəraitinə görə işçilər lazımi avadanlıq və xüsusi geyimlərlə təmin olunur, işçilərin təhlükəsizliyi diqqət mərkəzində saxlanılır. Təzə balığın satış məntəqələrinə çatdırılması üçün "Hyundai" markalı avtomobil və 2 ton tutumlu soyuducu kamera vardır. Yeri gəlmişkən oxucularımıza təzə Araz balığının Naxçıvan şəhərindəki "Cahan" ticarət mərkəzində firma mağazada satıldığını da xatırlatmaq yerinə düşər.

Yuxarıda qeyd etdiyimiz kimi, Naxçıvan "Balıqçılıq Təsərrüfatı"nın əsas vəzifələrindən biri də balıq ovlanması ilə yanaşı, balıq yetişdirilməsidir. Bunun üçün kompleksdə 40 qapalı hovuzun hər birində 25 min olmaqla, il ərzində 1 milyon balıq yetişdirilməsi nəzərdə tutulub. Hovuzlar balıqların çoxalıb böyüməsi üçün zəruri mikrobioloji mühitlə təmin olunub, bunun üçün avadanlıqlar quraşdırılıb. Bu da imkan verəcəkdir ki, muxtar respublikanın su hövzələrində balıq artırılması mövcud su hövzələrimizin bioloji xüsusiyyətlərinə və əhalinin tələbatına uyğun şəkildə öz imkanlarımız hesabına mümkün olsun. Muxtar respublikamızın Heydər Əliyev, Araz, Arpaçay və Uzunoba Su anbarları kimi iri su hövzələrində öz fəaliyyətini genişləndirən Naxçıvan "Balıqçılıq Təsərrüfatı" qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün yaradılmış şəraitdən lazımınca istifadə etməyə çalışır.

**Əli CABBAROV**

# Dövlət dəstəyi şərurlu sahibkarlar üçün geniş imkanlar açıb

***Muxtar respublika iqtisadiyyatının uğurlu inkişafında hər bir bölgənin öz çəkisi var. Əldə olunan nailiyyətlərdə Şərur rayonunun da payı az deyil. Dövlətimiz tərəfindən təsərrüfat adamlarına, fermerlərə və fiziki şəxslərə göstərilən diqqət və qayğının nəticəsidir ki, rayonda xüsusən aqrar sektorun çoxşaxəliliyi təmin olunub. Naxçıvan Muxtar Respublikası Sahibkarlığa Kömək Fondu tərəfindən sahibkarlara verilən güzəştli kreditlər hesabına rayonda soyuducu anbarların, istixana təsərrüfatlarının yaradılması üzrə investisiya layihələri həyata keçirilib.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" muxtar respublikamızın bütün bölgələrində olduğu kimi, Şərur rayonunda da sahibkarlığın inkişafına geniş imkanlar açıb. Yaradılan imkanlardan bəhrələnən sahibkarlardan biri də rayonun Məmmədsabir kəndində soyuducu anbar işlədən Yusif Quliyevdir. Müsahibim deyir ki, 2009-cu ildə müəssisəmiz soyuducu anbar tikintisini başa çatdırdı. Obyektin inşasına 180 min manat vəsait sərf olunub. Bunun 50 min manatını şəxsi vəsaitim, 130 min manatını isə Sahibkarlığa Kömək Fondunun vəsaiti hesabına göstərilən maliyyə dəstəyi təşkil edib. Dövlət dəstəyi hesabına yaradılan soyuducu anbar artıq 5 ildir ki, fəaliyyət göstərir. Doğrudur, ilk illərdə kənd təsərrüfatı məhsulları istehsalçılarının soyuducu anbarların əhəmiyyəti haqda məlumatı az olduğundan 300 ton tutumu olan anbarı doldurmaq bir az çətin idi. Ancaq son illərdə torpaq mülkiyyətçiləri bu anbarlarda məhsul saxlamağın gəlir gətirdiyini görüblər və bunun nəticəsidir ki, sentyabr ayının ikinci yarısında anbar əsasən meyvə, kartof və digər kənd təsərrüfatı məhsulları ilə tamamilə dolub.



Sahibkar dedi ki, artan tələbat nəzərə alınaraq bu il müəssisədaxili imkanlar hesabına anbara daha bir 150 tonluq bölmə əlavə edilib. Hazırda məhsul tədarükü davam etdirilir. Ümumiyyətlə, anbara kartof məhsulunun tədarükü üçün hər kiloqrama torpaq mülkiyyətçilərindən 10 qəpik alınır və bu il işlərin yaxşı getməsi onu deməyə əsas verir ki, dövlətdən alınan kreditlərin ödənilməsində çətinliklər olmayacaq. Məhsulunu uzun müddətə anbarda saxlamaq istəyən mülkiyyətçilərə daha çox üstünlük verilir. Çünki qısa müddətə anbardan yararlanılması anbarın rentabelli işləməsinə mane olur. Vaxtilə boş qalan bu anbarlarda indi mövsüm zamanı boş yer tapılmır. Əksər fermerlər topladığı məhsulu bir müddət soyuducu anbarlarda saxlayaraq sərfəli qiymətə satmağı üstün tuturlar.

Yusif Quliyev onu da deyir ki, fərdi təsərrüfat sahibləri üçün məhsulun saxlanma qiymətləri əlverişlidir. Belə müştərilər üçün icarəhaqqı sahibkarlara nisbətdə, demək olar ki, eynidir. Qiymət məsələsində ağır çəkili məhsullara güzəşt olunur.

Bölgələrdə soyuducu anbar komplekslərinin tikintisinin əsas hədəfi muxtar respublika əhalisini qış mövsümündə keyfiyyətli meyvə-tərəvəz məhsulları ilə təmin etmək, məhsul bolluğu yaratmaq və ixrac potensialını artırmaqdır. Sahibkar deyir ki, anbarlara tədarük edilən məhsulu soyuducu kameralarda Novruz bayramınadək saxlamaq mümkündür. Bu isə nəinki qışda, hətta erkən yazda qiymət qalxımını əngəlləyən əsas amillərdəndir. Soyuducu anbarlar bəhs edilən dövrdə xaricdən idxalın azalmasına, ixracın isə artmasına təsir edir. Nəticədə, kənd təsərrüfatı məhsulları istehsal edən torpaq mülkiyyətçilərinin gəlirləri artır.

Şərurun kəndlərinə yolu düşənlər buradakı səliqəli, ölçülü-biçili istixanaları görüblər. Açığını deyək ki, sovet dönəmində çox az həyətlərdə gördüyümüz belə istixanalar məhz müstəqillik illərində sürətlə artmağa başladı. Ancaq bu işlə peşəkarlıqla məşğul olanların, qazanc mənbəyini bu sahədə görənlərin sayı son 20 ildə artıb. Bu da onun nəticəsində mümkün olub ki, qış aylarında istixana məhsullarına tələbat artıb, bu tələbatın dolğun ödənilməsi üçün ən gəlirli sahələrdən birinə çevrilib, istixanalar hesabına faraş tərəvəz bolluğu yaradılıb.

Dövlət dəstəyi ilə Şərur rayonunun Çərçiboğan kəndində yaradılan, rayonda fəaliyyət göstərən onlarla istixanadan birinin sahibi Abdulla Adıgözəlov deyir ki, muxtar respublika rəhbərinin sahibkarlarla keçirilən görüşlərdə ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində həyata keçirilən tədbirlərin davam etdirilməsinin vacibliyini bildirməsi, bazarın yerli tərəvəz məhsulları ilə təmin olunması, ekoloji təmiz məhsulların istehsalına diqqətin artırılması və bu sahə ilə məşğul olan sahibkarların fəaliyyətinin dəstəklənməsi barədə aid qurumlara tapşırıqlar verməsi hər bir sahibkar kimi, onu da gördüyü işə daha da həvəsləndirib, bu işin perspektivli olmasına inam yaradıb.

Muxtar respublikada sahibkarlığın inkişafı üçün hərtərəfli şərait yaradıldığını bildirən və göstərilən qayğıya görə minnətdarlıq edən Abdulla Adıgözəlov deyir ki, istixana kompleksinin yaradılmasında əsas məqsəd əhalini ekoloji cəhətdən sağlam tərəvəz məhsulları ilə təmin etməkdən ibarətdir. Bir hektardan artıq ərazini əhatə edən istixana kompleksində tərəvəz bitkilərinin əkini, şitil yetişdirilməsi sahələri yaradılıb. İldə 70 ton xiyar, 35 ton pomidor yetişdirilən istixanada Türkiyə istehsalı olan müasir avadanlıqlar quraşdırılıb, drenaj şəbəkəsi çəkilib, məhsulların satış məntəqələrinə çatdırılması üçün nəqliyyat vasitələri alınıb. Kompleks iqlimnəzarət, istilik-mühafizə, havalandırma, gübrələndirmə və suvarma sistemləri ilə təchiz edilib. Burada damcı və çiləmə suvarma üsulundan istifadə edilir. Müasir texnologiyaların tətbiqi bazara rəqabətədavamlı məhsul çıxarılmasına imkan verir.



İstixananın yaxınlığındakı 7 hektar meyvə bağından da yaxşı məhsul alındığını deyən sahibkar onu da bildirdi ki, istixanalar yaxşı gəlir gətirsə də, məhsulun ərsəyə gəlməsinə qədər xüsusi diqqət və zəhmət tələb olunur. Bu sahədə çalışan hər bir sahibkar əkin planlaşdırmasına xüsusi diqqət yetirməlidir. Təbii ki, bu işdə əsas sözü fermerin topladığı təcrübə deyir, ancaq bu təcrübə də elə-belə qazanılmır. İllərin təcrübəsi təsərrüfata dəyən müəyyən ziyan və zərərlər nəticəsində qazanılır. İstixana sahibi üçün ən səhv addım "mən necə deyirəmsə, elə də olmalıdır" fikri ilə hərəkət etməkdir. Bu işdə daha təcrübəlilərin fikrindən yararlanmaq ən yaxşı vasitədir. Bəzi sahibkarlar var ki, kənardan gətirilmiş bir aqronomun səhv istiqamət verməsi üzündən xeyli zərər görür. Halbuki bizim özümüzdə bu sahəni bilən kifayət qədər mütəxəssis var. Ona görə də bu sahədə işə başlayanda bacarıqlı, işgüzar, savadlı adamlarla yola çıxmaq lazımdır. İstixanalarda görüləcək işlərlə bağlı çıxarılan qərarların hamısında bu insanlarla məsləhətləşmələr aparılmalıdır. İllik və gündəlik bazarı bilən adamlarla əlaqə yaratmaq lazımdır. Hansı məhsulun hansı ayda daha çox satıldığının öyrənilməsi vacibdir. Bundan başqa, digər istixana komplekslərinin sahibləri ilə əlaqələr yaradılması, təcrübə mübadiləsinin aparılması günün tələbidir.

*Bəli, Şərurda iş adamlarına, fərdi təsərrüfatlara, əkin-biçinlə məşğul olanlara hər cür şərait yaradılıb. Bütün bunlar dövlətin sahibkarlığın, özəl sektorun inkişafı ilə bağlı həyata keçirdiyi tədbirlərin nəticəsidir.*

**Səbuhi HÜSEYNOV**

*Yeni nəşrlər*

## “Musiqinin elementar nəzəriyyəsi” adlı dərslik




Bu yaxınlarda Naxçıvan Dövlət Universitetinin Bəstəkarlıq kafedrasının müəllimi Rüxsarə Hüseynovanın müəllifi olduğu “Musiqinin elementar nəzəriyyəsi” adlı dərslik çapdan çıxmışdır.

Təqdim olunan dərslik musiqi təhsili sahəsində təməl dərsliklərdən biridir. On dörd fəsildən ibarət olan dərslik tələb olunan bütün mövzuları əhatə edir. Hər mövzunun sonunda həmin mövzu ilə bağlı müvafiq suallar, şifahi və yazılı tapşırıqlar, fortepianoda ifa üçün not nümunələri təqdim olunur ki, bu da nəzəri biliklərin praktik şəkildə mənimsənilməsi vasitəsilə daha da möhkəmlənməsinə, daha yaxşı qavranılmasına kömək edir.

Müəllif bu dərslikdə bundan öncə yazılmış xarici və yerli musiqişünasların nəzəri fikirlərinə əsaslansa da, o, burada öz bilik və təcrübələrini ortaya qoyaraq əvvəlki dərsliklərdə olmayan bir sıra əlavələr də etmişdir. Bu, xüsusilə interval və akkordlara aid fəsillərdə, tərtib olunan cədvəllərdə, musiqi terminlərinin müfəssəl şərhində özünü göstərir. Ladlar bölməsində Azərbaycan ladlarının ayrıca paraqrafda verilməsi xüsusi olaraq müsbət cəhət kimi qiymətləndirilməlidir. Şagird və tələbələrə milli ladların öyrədilməsi onlarda milli musiqi ilə bağlı biliklərin yaranmasına təkan verir və gələcəkdə onların Azərbaycan xalq musiqi nümunələrini daha da yaxşı mənimsəmələrinə imkan yaradır.

Dərslik səlis, aydın dili ilə seçilir. Müəllifin uzun illər ərzində bu sahədə uğurla çalışması, zəngin iş təcrübəsi onun fikirlərinin ifadə dilində, tapşırıq və sualların sanballı, əhatəli tərtib olunmasında özünü büruzə verir.

Azərbaycanın bütün musiqi məktəblərində istifadə olunacaq bu dərsliyin həmyerlimiz tərəfindən yazılması Naxçıvanda musiqi təhsilinə göstərilən qayğının daha bir bariz nümunəsidir.

**Günay MƏMMƏDOVA**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**

## Kitab müzakirəsi keçirilib

Kəngərli Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Yurdçu və Qarabağlar kənd filialının birgə təşkilatçılığı ilə görkəmli yazıçı Elçin Əfəndiyevin “Mahmud və Məryəm” adlı kitabının müzakirəsi keçirilib. Kitab müzakirəsində rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Kərim Qazıbəyov çıxış edərək keçirilən tədbirin məqsəd və mahiyyətindən danışıb.

Yurdçu kənd kitabxana filialının müdiri Şəbnəm Məmmədova çıxış edərək qeyd edib ki, Elçinin “Əsli və Kərəm” dastanı üzərində köklənmiş “Mahmud və Məryəm” əsəri sanballı nəsr əsərlərindən biridir. Bu əsərin süjet və obrazları “Əsli və Kərəm” dastanının süjet və obrazlarıyla üst-üstə düşsə də, burada sənətkar təxəyyülünün ortaya çıxartdığı yeni bir əvəzsiz sənət nümunəsini görürük.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

## Hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələrlə görüş

Dünən “Naxçıvan” Universitetində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” 2015-ci il 27 iyul tarixli Sərəncamının icrası ilə bağlı Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tədbirlər planında nəzərdə tutulmuş Turizm və otelçilik ixtisası üzrə təhsil alan II kurs tələbələrlə görüş keçirilmişdir.

Nazirliyin Turizm şöbəsinin müdiri Gülbuta Babayeva Naxçıvan Muxtar Respublikasının turizm potensialı ilə bağlı tələbələrə ətraflı məlumat vermişdir. Çıxışda qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasının geniş turizm potensialı vardır. 250-dən çox mineral və müalicə əhəmiyyətli su mənbələrinin olması, zəngin mətbəxi, qədim tarixi və mədəniyyəti Naxçıvanda turizmin inkişafı üçün geniş perspektivdən xəbər verir.

Son illər Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə bu sahənin inkişafı üçün mühüm işlər görülür. Qədim diyarın bütün bölgələrində müasir infrastruktur qurulur, yaşayış məntəqələri abadlaşdırılır.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Əli Rzayev qeyd etmişdir ki, turizmin inkişafı həm də bu sahədə ixtisaslı kadrların hazırlanmasını tələb edir. Bildirilmişdir ki, ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi hazırlıqlı, bilikli gənc kadrların hazırlanmasına geniş şərait yaradacaqdır.

Tədbirdə muxtar respublikada turizmin inkişafı ilə bağlı slaydlar nümayiş etdirilmiş, tələbələrdən Faiq Səfərli, Zaur Məmmədli, Nicat Əsgərov, Vəli Babayev, Turan Qədimov, Güləsər Əliyeva, Sərvan Əhmədov, Ramil Məmiyev və başqalarının turizm haqqında fikirləri dinlənilmişdir.

**Əli RZAYEV**

## Uşaq musiqi məktəblərinin konserti olub

*Dünən Babək Rayon Şıxmahmud Kənd Uşaq musiqi məktəbinin kollektivi rayonun Didivar Kənd Mərkəzində konsert proqramı ilə sakinlər qarşısında çıxış edib.*

Konsertdə adıçəkilən musiqi məktəbinin şagirdləri tərəfindən muğamlarımız, xalq mahnıları, milli rəqs musiqiləri səsləndirilib. Bundan başqa, şagirdlər tərəfindən dünya və Azərbaycan klassiklərinin bəstələdiyi musiqilərin ustalıqla ifası da konsert proqramına xüsusi ab-hava qatıb. Məktəbin şagirdlərindən Ələsgər Məmmədovun, Fuad Rəhimovun, Firuzə və Səma Şahverdiyevaların, Amil Məmmədovun ifaları xüsusilə yaddaqalan olub, tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.



Məlumat üçün bildirək ki, həmin gün Naxçıvan Şəhər Qaraçuq Kənd Uşaq musiqi məktəbinin şagirdləri Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində, Ordubad Rayon Vənənd Kənd Uşaq musiqi məktəbinin şagirdləri Gənzə kəndində, Kəngərli Rayon Çalxanqala Kənd Uşaq musiqi məktəbinin kollektivi isə həmin kənddə konsert proqramı ilə çıxış ediblər. Hər üç kollektivin repertuarının zənginliyi konsert proqramlarına tamaşaçı marağını artırıb.

## Velosiped yarışı üzrə şəhər birinciliyi başa çatıb



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Hava və Ekstremal İdman Növləri Federasiyasının birgə təşkilatçılığı ilə Naxçıvan şəhər ümumtəhsil məktəblərinin şagirdləri arasında velosiped yarışı üzrə şəhər birinciliyi keçirilib. Naxçıvan Muxtar Respublika Stadionunda keçirilən yarışda 15 məktəbin 90-dan çox şagirdi mübarizə aparıb.

Yarışın açılış mərasimində çıxış edən Gənclər və İdman Nazirliyinin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov və federasiyanın sədr müavini Azər Məmmədov muxtar respublikada idmana və idmançılara göstərilən diqqət və qayğıdan danışıblar. Yarışın qaydaları haqda velosipedçilər məlumatlandırıldıqdan sonra birinciliyə start verilib.

Yarışın reqlamentinə əsasən, qızlar 1200 metr, oğlanlar isə 1600 metr məsafəni qət etməyə çalışıblar. Qızların mübarizəsində 9 nömrəli tam orta məktəbin şagirdi Lütfiyyə Mehdiyeva bütün rəqiblərini geridə qoyaraq qalib adını qazanıb. Bu məktəbin digər şagirdi Nərmin Əsmərova ikinci, 4 nömrəli tam orta məktəbin şagirdi Sevinc Əliyeva isə üçüncü olub.

Oğlanların mübarizəsində ilk pillədə 9 nömrəli tam orta məktəbin şagirdi Azər Abbasov qərarlaşıb. Digər iki pilləni isə 2 nömrəli tam otra məktəbin şagirdi Elşad Əliyev və 16 nömrəli tam orta məktəbin şagirdi Musa Sadiqov tutublar.

Sonda qaliblər təşkilatçılar tərəfindən mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

Dünən Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan

## “Girdab” filmi nümayiş etdirilib

Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi və “Gənc Vətənpərvərlər” İctimai Birliyinin təşkilatçılığı ilə gənclərin vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması məqsədilə “Girdab” bədii filmi nümayiş olunub. Tədbirdə muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri, Heydər Əliyev adına Hərbi Liseyin kursantları və “Gənc Vətənpərvərlər” İctimai Birliyinin üzvləri iştirak ediblər.

Qeyd edək ki, bu səpkidə filmlərin qarşıdakı aylarda da nümayiş etdirilməsi nəzərdə tutulub.

**Xəbərlər şöbəsi**

***Muxtar respublikada ahıl vətəndaşların sağlam həyat tərzində yaşaması, onların cəmiyyətə daha fəal inteqrasiyası üçün hərtərəfli şərait yaradılıb.***

## Ahıllar arasında bayatı müsabiqəsi

Ahıllar arasında yaradıcılıq müsabiqələri, əl işlərindən ibarət sərgilər, stolüstü oyunlar üzrə yarışlar təşkil olunur. Bütün bunlar muxtar respublikada ahıl vətəndaşlara göstərilən davamlı dövlət qayğısından xəbər verir.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq, 1 oktyabr Beynəlxalq Ahıllar Günü münasibətilə sentyabrın 29-da ahılların iştirakı ilə xalq ədəbiyyatının geniş yayılmış bayatı janrı üzrə müsabiqə keçirilib.

Müsabiqə iştirakçıları vətən, dostluq barədə, xoşbəxtlik arzuları ifadə edən bayatılar söyləməklə qabiliyyətlərini nümayiş etdiriblər.

Münsiflər heyətinin rəyi əsasında müsabiqənin qalibləri mükafatlandırılıblar. Digər müsabiqə iştirakçılarına həvəsləndirici hədiyyələr təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikasının prokurorluq *orqanlarına işə qəbulla əlaqədar sənədlərin qəbulu davam etdirilir*

Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş “Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə”yə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən Naxçıvan Muxtar Respublikası Prokurorluğu və Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğu orqanlarında işə qəbul olunmaq arzusunda olan şəxslər üçün 10 ştat vahidi üzrə elan edilmiş müsabiqə ilə bağlı sənədlərin qəbulu 2015-ci il noyabr ayının 1-dək davam etdirilir.

Sənədlər Naxçıvan şəhəri, Atatürk küçəsi 22-də yerləşən Naxçıvan Muxtar Respublikası Prokurorluğunun inzibati binasının qəbul otağında hər gün (şənbə və bazar günləri istisna olmaqla) saat $10^{00}$-dan $18^{00}$-dək qəbul olunur.

Prokurorluğa işə qəbul olunmaq üçün sənədlərini təqdim etmək istəyən şəxslərin nəzərinə çatdırılır ki, qanunvericiliklə müəyyən edilmiş tələblərə cavab verən şəxslər Naxçıvan Muxtar Respublikası ərazisində yaşayış yeri üzrə qeydiyyatda olmalı və ali hüquq təhsili Azərbaycan Respublikası ərazisində müvafiq qaydada tanınan diplomla təsdiq edilməli, Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilməli və seçkilərdə iştirak etmək hüququna malik olmalıdır. Prokurorluğa 30 yaşınadək olan Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar.

Test tapşırıqlarının hazırlanmasında Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının konstitusiyalarından, Cinayət, Cinayət-Prosessual, Mülki, Mülki-Prosessual və Əmək məcəllələrindən, həmçinin “Prokurorluq haqqında”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında” və digər qanunlardan, eləcə də “İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında” Avropa Konvensiyasından istifadə ediləcəkdir.

***Əlavə məlumatlar almaq üçün 545-03-14, 545-03-15 nömrəli telefonlar vasitəsilə müraciət etmək olar***

## Taxılçılıqla məşğul olan sahibkarların nəzərinə

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi taxılçılıqla məşğul olan torpaq mülkiyyətçilərinin nəzərinə çatdırır ki, 2016-cı ilin məhsulu üçün payızlıq taxıl əkinlərinin vaxtında və keyfiyyətli aparılması üçün yüksək reproduksiyalı, torpaq-iqlim şəraitinə uyğun gələn, rayonlaşdırılmış taxıl sortlarından istifadə edilməlidir. Belə toxumlarla əkin aparıldıqda məhsuldarlıq 20-30 faiz və daha çox artır.

Hazırda muxtar respublikada fəaliyyət göstərən toxumçuluq təsərrüfatlarında yüksəkkeyfiyyətli toxum tədarük edilmişdir. Keyfiyyətli taxıl toxumları əldə etmək üçün torpaq mülkiyyətçiləri aşağıdakı ünvanlara müraciət edə bilərlər:

*1. “Naxçıvan Aqrolizinq” ASC-nin mərkəzi və rayon bazaları*
*2. “Bərəkət” toxumçuluq təsərrüfatı – Naxçıvan şəhəri*
*3. “Sədi” toxumçuluq təsərrüfatı – Şərur rayonu*
*4. Şərur “Aqrotexservis” Səhmdar Cəmiyyətinin toxumçuluq təsərrüfatı – Şərur şəhəri*
*5. “Təbriz” toxumçuluq təsərrüfatı – Şərur rayonu*
*6. “Araz” Elm İstehsalat Birliyinin toxumçuluq təsərrüfatı – Babək rayonu.*

Məlumat üçün bildirilir ki, hazırda təsərrüfatlarda rayonlaşdırılmış, yüksək kondisiyalı “Qobustan”, “Quality”, “Quadilop”, “Ceyhan-99”, “Dağ-daş”, “Əzəmətli” və sair toxumluq taxıl sortları vardır. Bir kiloqram toxumun satış qiyməti 50 qəpikdir.

***Bildiriş***

“Çay evi” firması (VÖEN:0200107751) fəaliyyətini dayandırdığından ləğv olunur.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 732